# “Mikayıl Müşfiqin yaradıcılıq yolu”



Naxçıvan Dövlət Universitetində görkəmli şair Mikayıl Müşfiqin 110 illiyinə həsr edilmiş elmi konfrans keçirilib. Tarix-Filologiya fakültəsinin təşkilatçılığı ilə keçirilən konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında” müvafiq Sərəncamını tədbir iştirakçıların diqqətinə çatdırıb. Qeyd edilib ki, Stalin repressiyalarının qurbanı olmuş ədib öz qısa ömründə çox böyük əsərlər yaratmağa müvəffəq olub.

Konfransda “Mikayıl Müşfiqin yaradıcılıq yolu” mövzusunda çıxış edən Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru Hüseyn Həşimli XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, repressiya qurbanı şairin həyat və yaradıcılığından danışıb. Bildirilib ki, Mikayıl Müşfiqin şəxsiyyəti milli şüur və vətənpərvərliyin timsalı, yaradıcılığı isə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizdə vətənpərvərlik hislərinin tərbiyəsində əvəzsiz xəzinədir.

Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru Sədaqət Həsənova “Mikayıl Müşfiq və ədəbi dilimiz” mövzusunda çıxışında unudulmaz şairin ədəbiyyatımızdakı xidmətlərindən danışıb. Qeyd edilib ki, şairin zəngin ədəbi irsinə şeirdən tutmuş poemayadək (“Çoban”, “Mənim dostum”, “Qaya”, “Sındırılan saz”, “Səhər”, “Azadlıq dastanı”) lirik növün əksər janrları daxildir.

Sonda tələbələrin şairin şeirlərindən ibarət bədii qiraəti dinlənilib.